**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***əlyazması hüququnda***


**LEYLA FƏQANİ QIZI FARDİLON**


# MÜLKİ AVİASİYANIN ANTİTERROR MÜDAFİƏSİNİN TƏMİN EDİLMƏSİNİN BEYNƏLXALQ-HÜQUQİ ASPEKTLƏRİ

**İXTİSAS: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru,<br>professor Ə.İ.ƏLİYEV.** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru<br>E.Ə.ƏLİYEV.** |
| | **hüquq üzrə fəlsəfə doktoru,<br>dosent F.İ.QURBANOVA.** |
| **Aparıcı təşkilat:** | **AMEA-nın Hüquq və İnsan haqları üzrə Elmi-Tədqiqat İnstitutu.** |

Dissertasiya işinin müdafiəsi "___" "____________" 2017-cı il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2017-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** İstər qlobal və regional, istərsə də ayrı-ayrı dövlətlərdə baş verən mülki aviasiyaya qarşı qanunsuz müdaxilə aktları müasir dövrdə təhdid vasitəsi kimi geniş vüsət almışdır. Doğrudur, tarixi proseslərin sürətli inkişafı və cəmiyyət həyatında gündəlik baş verən yeniliklər bu cinayət növünü artıq universal yurisdiksiyanın tətbiqi zərurətini reallığa çevirən beynəlxalq ictimai-təhlükəli əmələ çevirmişdir. Çünki XX əsrin 40-50-ci illərindən etibarən, mütəmadi şəkildə baş verən hava terrorçuluğunun müxtəlif aspektləri, xüsusilə mülki hava gəmisinin qaçırılması şəxsi tələblərlə, habelə əvvəllər törətdiyi əmələ görə istintaqdan və məhkəmədən qaçıb gizlənmək məqsədilə həyata keçirildiyi halda, son onilliklər bu özünü yeni təzahür formalarında büruzə verməkdədir. Hətta 2001-ci ildə və ondan sonrakı dövrlərdə statistik göstəricilərə nəzər salsaq, ildən-ilə genişlənən mülki aviasiyaya qarşı qanunsuz müdaxilə aktlarının artıq beynəlxalq ictimaiyyətə təhdid vasitəsinə çevrilməsinin şahidi ola bilərik. Belə ki, təkcə XXI əsrin başlanğıcı olan 2001-ci ildə mülki aviasiyaya qarşı Asiya və Sakit okean regionunda 6, Avropa regionunda 8, Latın Amerikası və Karib hövzəsi regionunda 3, Orta Şərq və Şimali Afrikada 3, Şimali Amerikada 5 müdaxilə halı baş vermişdir. Həmin hadisələr içərisində Anqolanın Uiqa hava limanına hücumu, Komor Adaları İttifaqı Respublikasının hava limanının ələ keçirilməsini, ABŞ-dan Kubaya hərəkət edən ümumi aviasiya təyyarəsinin qaçırılmasını, Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus təyyarənin Sudanda atəşə tutulmasını, Yəmən Hava Yollarına mənsub olan və Yəmən-Cibuti istiqaməti üzrə uçan mülki təyyarənin qaçırılmasını, Makedoniya keçmiş Yuqoslaviya Respublikasında Britaniya Hava Yollarının ofisinə silahlı hücumu, TransQayana Hava Yollarına məxsus Qayana-Braziliya reysi ilə hərəkət edən mülki hava gəmisinin qaçırılmasını və digər onlarla analoji hadisələri göstərmək olar. Şübhəsiz ki, Amerika Hava Yollarına mənsub dörd təyyarənin qaçırılaraq dağıdıcı vasitə kimi istifadə olunduğu 11 sentyabr 2001-ci il hadisələri isə bunun kulminasiya nöqtəsini təşkil etmişdir. Yuxarıda qeyd olunan statistik göstəricilərə daxil edilməyən, lakin mülki aviasiyaya qarşı qanunsuz aktlar qismində törədilən müəyyən əməllər mövcuddur ki, onların da əsas məqsədi ictimaiyyət arasında vahimə yaratmaqla, müəyyən siyasi qərarların qəbuluna təsir göstərməkdən ibarət olmuşdur. Nümunə qismində 31 iyul 2001-ci il tarixdə Rusiya Federasiyasının Mineralnıye-Vodı hava limanında 40 nəfər sərnişinin girov götürülməsi faktını göstərmək olar[1].

Bütün bunların qarşısının alınması və aradan qaldırılması isə terrorçuluqla mübarizə tədbirləri çərçivəsində aparılan işlərin bir hissəsini

[1] www.nsarchive.gwu.edu/NSAEBB/NSAEBB165/faa8.pdf



təşkil edir. Bu isə son illər elmi ədəbiyyatlarda daha çox işlənən "terrorçuluğa qarşı müharibə" anlayışının realizəsinin vacibliyini ortaya qoyur. Sözügedən "müharibə" öz-özlüyündə təhlükəli və anti-sosial fəaliyyətə qarşı bütün qüvvə və resursların səfərbər edilməsidir. İstənilən halda tam ləğv edilməsi qeyri-mümkün hal sayılsa da, onun sosial sabitliyə təhlükə yaratmayacaq səviyyədə saxlanması və ya belə səviyyəyə endirilməsi mümkündür[2]. Çünki real olmasa da, hər bir an və dünyanın istənilən ölkəsində terror təhdidlərinin, o cümlədən hava terrorçuluğunun baş verməsi labüd və potensial haldır.

Şübhəsiz ki, hər bir cinayət növü ilə olduğu kimi, mülki aviasiyaya qarşı qanunsuz hərəkətlərlə mübarizə özünün müəyyən səciyyəvi əlamətlərinə malikdir. Birinci hal kimi hava limanlarının təhlükəsizliyinin təmin edilməsi məsələsini xüsusilə vurğulamaq lazımdır. Belə ki, real təcrübədə hava limanlarının təhlükəsizliyinin təmin olunması nizam-intizam hallarının formalaşdırılması ilə yanaşı, həm də risklərin qiymətləndirilməsinin üsulları ilə sıx şəkildə bağlılığa malik olmaqla, əhəmiyyətli dərəcədə subyektiv amilləri özündə birləşdirir. Məhz bu baxımdan, hava limanlarının təhlükəsizlik sistemlərinə olan risklərlə bağlı iki əsas məsələni nəzərə almaq vacibdir:

1) *potensial təhlükələrin qiymətləndirilməsi, habelə hava limanındakı qurğu və avadanlıqların, onların hazırlıq vəziyyətinə, niyyətlərə və baş verən əvvəlki analoji hadisələrə əsaslanan amillərlə bağlı eyniləşdirmənin aparılması.* Bu növ qiymətləndirmə potensial təhlükənin eyniləşdirilməsinə sistematik yanaşmanı özündə əks etdirməklə, müəyyən mənbələrdən, xüsusilə əməliyyat yolu ilə əldə edilmiş informasiyaya əsaslanır. Eyni zamanda, bu məlumatlar təkmilləşdirilməli və yeni təhdidlərin aşkar olunması məqsədilə mütəmadi şəkildə yenilənməlidir. Onu da nəzərə almaq lazımdır ki, sözügedən məlumat çətin müəyyən olunan proseslərin qiymətləndirilməsində mühüm addımı və məqamı ifadə edir.

2) *hava limanının yerləşdiyi ərazi və binanın həssaslığının yalnız əməliyyat sistemlərinə dair vasitələr, eləcə də qabaqcıl təhlükəsizlik avadanlığı, informasiya ehtiyatları, maliyyə və digər mənbələrlə təmin olunmuş ixtisaslı mütəxəssislərin cəlb olunduğu heyətin apardığı genişmiqyaslı analitik iş əsasında qiymətləndirilməsi.* Mülki hava limanlarının həssaslığının qiymətləndirilməsi həmin məkanlarda istismar prosedurları zamanı təhlükəsizliyin təmin edilməsi üçün zəruri olan idarəetmə proseslərinin müəyyənləşdirilməsinin əsasını təşkil edir. Bu halda risklərin idarə olunmasına analitik yanaşma onun qiymətləndirilməsi ilə sıx qarşılıqlı əlaqəyə malikdir[3].

Göründüyü kimi müasir dövrdə mülki aviasiyaya qarşı qanunsuz hərəkətlər təkcə təyyarələrin qaçırılması, yaxud onların zədələnməsi və ya

[2] Howard M. What's in a Name? How to Fight Terrorism // Foreign Affairs, 2002, Vol. 81, Issue 1, p. 8.

[3] Kolesár J., Petruf M. Safety management system protection against acts of unlawful interference of civil airport // Journal of Logistics Management, 2012, Vol. 1, No 2, p. 10.

məhv edilməsi ilə məhdudlaşmır, eyni zamanda, hava limanlarının ələ keçirilməsi və dağıdılması, eləcə də orada mövcud olan avadanlıq və qurğulara müdaxiləni də əhatə edir. Bu, xüsusilə, kibercinayətkarlıqla mülki aviasiyaya təhdidlərin qarşılıqlı əlaqəsi məsələsini önə çəkir[4]. Yəni, mülki aviasiya sahəsində mövcud olan istənilən məlumat bazasına, yaxud kompüter informasiya-texnologiyaları vasitəsilə idarə olunan qurğu və avadanlıqlara müdaxilə etməklə mülki aviasiya əleyhinə istənilən terrorçuluq cinayətini həyata keçirmək mümkündür. Bunun üçün hava gəmisinin və ya hava limanının fiziki məhvi və ya ona zərər yetirilməsi əsas şərt deyildir.

Lakin bir məsələyə də diqqəti yönəltmək lazımdır ki, son onilliklər mülki hava gəmisinin qaçırılması, habelə onun sərnişin və yüklə birlikdə məhv edilməsi və ya zərər yetirilməsi bu sahədə yeganə üsul hesab olunmamalıdır. Çünki XXI əsr həm də mülki hava gəmisindən kütləvi dağıdıcı vasitə qismində istifadə edilməsini şərtləndirən tarixi mərhələ kimi xarakterizə olunur. Doğrudur, bu halın baş verməsinə ilk dəfə 1994-cü ildə cəhd edilsə də, terrorçular tərəfindən sözügedən "üsul"dan real təcrübədə 11 sentyabr 2001-ci il hadisələri zamanı istifadə olunmuşdur. Bu hadisə sonrakı dövrlərdə müvafiq beynəlxalq sənədlərin qəbuluna geniş şərait yaratdı. Nümunə qismində Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İKAO) Assambleyasının 2001-ci ildə keçirilən 33-cü sessiyasında qəbul olunmuş "Mülki aviasiyanın dağıdıcı silah kimi sui-istifadəsi və mülki aviasiyanı cəlb etməklə törədilən digər terror aktları haqqında" Bəyannaməni göstərmək olar[5]. Digər səciyyəvi cəhət isə mülki hava gəmilərinin xüsusi silahlar vasitəsilə yerdən məhv edilməsi ilə bağlıdır. Hətta "Beynəlxalq mülki aviasiya haqqında" 1944-cü il Çikaqo Konvensiyasının 3 *bis* maddəsində qeyd olunmuşdur ki, hər bir dövlət uçuşda olan mülki hava gəmisinə qarşı silah istifadəsindən çəkinməli, onun ələ keçirilməsi zamanı isə göyərtəsində olan insanların həyatı və hava gəmisinin təhlükəsizliyi təhlükəyə məruz qalmamalıdır[6]. Bu kimi cinayətlərə, həmçinin, məqsədəmüvafiq hesab olunmayan hallarda mülki aviasiya əleyhinə yer-hava tipli daşına bilən zenit-raket kompleksindən istifadə də aid edilməlidir.

Mülki aviasiyaya qarşı qanunsuz müdaxilə hallarının qarşısının alınması və aradan qaldırılması həm də onun siyasi cinayət hesab edilməməsi və digər cinayətlərlə qarşılıqlı əlaqəsi məsələsinin hüquqi baxımdan təsbit olunması ilə sıx şəkildə bağlılığa malikdir. Birinci halda müvafiq müddəa universal beynəlxalq təşkilatların (məsələn, BMT, İNTERPOL və s.) qəbul etdiyi çoxsaylı sənədlərdə öz əksini tapmaqla, bu növ cinayətləri törətmiş şəxslərin mühakimə edilməsi və ya

[4] Nobles C. Cyber threats in civil aviation. In: Security Solutions for Hyperconnectivity and the Internet of Things. Edited by M.Dawson, M.Eltayeb, M.Omar. Harrisburg: IGI Global, 2016, p. 272-301.
[5] Europa World Year Yearbook, 2004. 45th edition. Volume I: International organizations, countries: Afganistan – Jordan. London: Taylor & Francis, 2004, p. 98.
[6] Ruys T. "Armed attack" and article 51 of the UN Charter: Evolutions in Customary Law and Practice. Cambridge: Cambridge University Press, 2010, p. 199.



ekstradisiya olunmasının vacibliyini önə çəkir. İkinci məsələ isə mülki aviasiyaya qarşı törədilən terrorçuluq hallarının müasir dövrün tələblərinə uyğun olaraq digər cinayətlərlə (xüsusilə, kibercinayətkarlıq, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, çirkli pulların yuyulması və s.) qarşılıqlı əlaqəsinin üzə çıxarılması ilə bağlıdır. Daha dəqiq ifadə etsək, bu kateqoriyadan olan ictimai-təhlükəli əməlləri təcrid olunmuş şəkildə deyil, kompleks formada elmi-nəzəri baxımdan qiymətləndirmək və hüquqi nöqteyi-nəzərdən tövsif etmək lazımdır. Doğrudur, qəbul edildiyi zaman etibarilə mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə yönəlmiş əksər beynəlxalq-hüquqi sənədlərdə *(məsələn, "Hava gəmisində törədilmiş cinayətlər və bir sıra digər aktlar barədə" 1963-cü il Tokio Konvensiyası, "Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında" 1970-ci il Haaqa Konvensiyası, "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönələn qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında" Monreal Konvensiyası və Konvensiyaya "Beynəlxalq mülki aviasiyaya xidmət göstərən hava limanlarında qanunsuz zorakılıq aktları ilə mübarizə haqqında" 1988-ci il Əlavə Protokolu və s.)* bu məsələ aydın şəkildə təsbit olunmasa da, onların müddəalarının genişləndirici mənada təfsiri bunu deməyə əsas verir. Lakin son illər ərzində qəbul olunan və real təcrübədə tənzimlənməyən münasibətlərin nizama salınmasına yönəlmiş bir sıra universal beynəlxalq müqavilələr *(məsələn, 2010-cu il tarixli "Beynəlxalq mülki aviasiyaya qarşı qeyri-qanuni aktlarla mübarizə haqqında" Pekin Konvensiyası)* yeni hüquqi ənənənin formalaşmasına gətirib çıxarmışdır. Bununla yanaşı, universal beynəlxalq təşkilatların yanaşmalarına *(məsələn, BMT Təhlükəsizlik Şurasının 2001-ci il tarixli "Beynəlxalq sülh və təhlükəsizliyə terror aktlarının yaratdığı təhdidlər haqqında" 1373 nömrəli Qətnaməsi və s.)* uyğun olaraq, terrorçuluq, o cümlədən mülki aviasiyaya qarşı terrorçuluq aktları beynəlxalq sülh və təhlükəsizliyə təhdid vasitəsi kimi nəzərdən keçirilir.

Bununla yanaşı, mülki aviasiyaya qarşı qanunsuz müdaxilə halları və digər aktlar, eyni zamanda, ölkələrin və regionların iqtisadiyyatına, ictimai təhlükəsizliyinə ciddi zərbə vurmaqla yanaşı, insanların həmin ərazilərdə olan sabitliyə etimadının minimuma endirilməsinə gətirib çıxarır. Məhz bu baxımdan, müasir mülki aviasiyaya qarşı təhdidlər tədqiqatlarda, əsas etibarilə, dörd istiqamət üzrə dəyərləndirilir: 1) texnologiyanın külli miqdarda zərər vurmaq qabiliyyətinə malik olması; 2) informasiya-kommunikasiya vasitələrinin ("kiber sahə"nin) lazımi gücə malik olması və bununla yanaşı fiziki baxımdan genişmiqyaslı asılılıqlar yaratması; 3) kompüterin imkanlarının insan bacarığını kifayət qədər üstələməsi; 4) aviasiyanın yüksək dəyərə malik olan hədəfə çevrilməsi[7].

[7] Kaspersen A. Four threats to aviation security – and four responses – www.weforum.org/agenda/2016/07/four-threats-to-aviation-security-and-four-responses

Mövcud sahədə Azərbaycan Respublikasının qanunvericilik təcrübəsinə gəldikdə, mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunması sahəsində meydana çıxan münasibətlər vahid qanunvericilik aktı çərçivəsində deyil, kompleks şəkildə nizama salınır. Belə ki, bu məsələ istər ümumi nəqliyyat münasibətləri *(məsələn, 11 iyun 1999-cu il tarixli "Nəqliyyat haqqında" Qanun)* və aviasiyanın təhlükəsizliyinin təmin edilməsi *(məsələn, "Aviasiya haqqında" 24 iyun 2005-ci il tarixli Qanun)*, istərsə də preventiv xarakterli tədbirlərin görülməsi *(məsələn, 1 sentyabr 2000-ci il tarixli Cinayət Məcəlləsi, 1 mart 2016-cı il tarixli İnzibati Xətalar Məcəlləsi)* ilə hüquqi baxımdan tövsif olunur. Şübhəsiz ki, həmin cinayətlərin törədilməsi nəticəsində meydana çıxan dolayı münasibətlərin də tənzimlənməyə ehtiyac vardır ki, bu halda digər sahəvi qanunvericilik aktlarının tətbiqi zəruridir. Məsələn, *1 yanvar 2012-ci il* tarixli *Gömrük Məcəlləsi, 29 iyun 2004-cü il tarixli "Milli təhlükəsizlik haqqında" Qanun, 28 oktyabr 1999-cu il tarixli "Polis haqqında" Qanun, 28 oktyabr 1999-cu il tarixli "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun, 9 dekabr 1991-ci il tarixli "Dövlət sərhədi haqqında" Qanun, 6 yanvar 1994-cü il tarixli "Sərhəd qoşunları haqqında" Qanun, 18 iyun 1999-cu il tarixli "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanun, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 10 fevral 2009-cu il Qanunu, "Lisenziyalar və icazələr haqqında" 15 mart 2016-cı il tarixli Qanun, 15 dekabr 1998-ci il tarixli "Təbii inhisarlar haqqında" Qanun* və s.

Qeyd olunan hüquqi tənzimetmə vasitələrinin realizəsi isə bütövlükdə "Azərbaycan Respublikasının Mülki aviasiyasında uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə Dövlət siyasəti"ndə öz əksini tapmışdır.

Beləliklə, qeyd olunanları nəzərə alaraq, mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinin beynəlxalq-hüquqi aspektlərinin elmi-nəzəri və praktiki baxımdan araşdırılmasını bir sıra meyarlarla əlaqələndirmək olar. *İlk növbədə*, bu məsələ kompleks ictimai münasibətləri əhatə etməklə, istər beynəlxalq hüququn (beynəlxalq cinayət hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq hava hüququ), istərsə də dövlətdaxili hüququnun (cinayət hüququ, mülki hüquq, nəqliyyat hüququ, inzibati hüquq) müxtəlif sahələrinə dair normaları, habelə dövlətüstü xarakterə malik Avropa İttifaqı hüququnun spesifik mənbəyi sayılan qanunvericilik və normativ aktları özündə ehtiva edir. *İkincisi*, müasir dövrdə mülki aviasiyaya qarşı törədilən terrorçuluq aktları digər ictimai-təhlükəli əməllərlə qarşılıqlı şəkildə nəzərdən keçirilməlidir. Buraya, xüsusilə mütəşəkkil cinayətkarlıq, kibercinayətkarlıq, terrorçuluğun maliyyələşdirilməsi, çirkli pulların yuyulması və s. aid edilə bilər. *Üçüncüsü*, mövcud məsələyə beynəlxalq təşkilatların yanaşma tərzinin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Universal beynəlxalq təşkilatlar mülki aviasiyaya qarşı terrorçuluq hallarını beynəlxalq sülh və təhlükəsizliyə təhdid vasitəsi kimi qiymətləndirdiyi halda, bir sıra regional qurumlar



(məsələn, Avropa İttifaqı) həmin əməllərin törədilməsinə görə cəza tədbirləri nəzərdə tutmuşdur. *Dördüncüsü*, mülki aviasiya əleyhinə terrorçuluq hallarının siyasi cinayətlər kateqoriyasına aid edilməməsi, *aut dedere, aut judicare* prinsipinin təsir qüvvəsinə daxil edilməsinə dair elmi-nəzəri araşdırmalarda olan fikir müxtəlifliyinin təhlil olunması, eləcə də beynəlxalq sənədlərin və beynəlxalq təşkilatların mövqeyinin araşdırılması bu növ ictimai-təhlükəli əməllərə kompleks yanaşmanı zəruri edir. *Beşincisi*, Azərbaycan Respublikasının mövcud sahədə qanunvericilik təcrübəsinin qiymətləndirilməsi, dünya dövlətlərinin qabaqcıl təcrübəsi ilə müqayisədə üstünlük və çatışmazlıqlarının aşkar olunması, habelə beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası mövcud tədqiqatın aktuallığını şərtləndirir.

Həmçinin, nəzərə almaq lazımdır ki, Azərbaycan hüquq elmində mülki aviasiya əleyhinə terrorçuluqla mübarizə məsələləri, xüsusilə bu sahədə beynəlxalq hüquqi əməkdaşlığın tənzimlənməsi sahəsində mövcud vəziyyət hal-hazıradək kompleks şəkildə tədqiq olunmamışdır. Bu və ya digər dərəcədə beynəlxalq hüquq (L.H.Hüseynov və b.), cinayət hüququ (F.Y.Səməndərov, İ.B.Ağayev və b.), Avropa cinayət hüququ və beynəlxalq nəqliyyat hüququ (Ə.İ.Əliyev, E.Ə.Əliyev və b.), beynəlxalq cinayət hüququ (R.K.Məmmədov və b.), cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın istiqamətləri (N.H.Mehdiyev, V.İ.Quliyev), habelə mülki aviasiyanın müxtəlif aspektləri – beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının mülki aviasiyasının fəaliyyətində tətbiqi problemləri (A.Ə.Məmmədov), Azərbaycan Respublikasının mülki aviasiyasında əmək münasibətlərinin konstitusion-hüquqi əsasları (A.Ə.Hüseynov), Azərbaycan Respublikasının mülki aviasiyasının təhlükəsizliyinin təmin edilməsinin konstitusion-hüquqi problemləri (S.X.Mürşüdova) barədə həyata keçirilən elmi-tədqiqatlar çərçivəsində araşdırılmasını və bunların əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır. Şübhəsiz ki, bu məsələdə beynəlxalq hava hüququnun tənzimetmə obyektinə daxil olan müxtəlif məsələlərin – beynəlxalq hava hüququnda hava azadlıqlarının nəzəri və praktiki problemləri (Z.Z.Xəlilov), Azərbaycan Respublikasında beynəlxalq hava əlaqələrinin hüquqi tənzimlənməsinin problemləri (G.Z.Bəşirova), beynəlxalq hava hüququnun normaları və Azərbaycan Respublikası (F.İ.Qurbanova) mövzuları üzrə aparılan tədqiqatları da nəzərə almaq lazımdır. Eyni zamanda, beynəlxalq hüququn digər müxtəlif sahələri (məsələn, beynəlxalq dəniz hüququ) üzrə tədqiqat aparan bir sıra alimlərin (R.F.Məmmədov) hava quldurluğunun doğurduğu problemlərə toxunmasına da diqqət yetirmək lazımdır.

Tədqiqatın **obyektini** mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunması istiqamətində meydana çıxan müxtəlif nəzəri və praktiki istiqamətlərin araşdırılması, **predmetini** isə bununla bağlı meydana çıxan münasibətlərin tənzimlənməsinə yönəlmiş beynəlxalq sənədlər, dövlətdaxili qanunvericilik aktları,

habelə mülki aviasiyanın təhlükəsizliyinin qorunmasının müxtəlif aspektlərinə dair beynəlxalq və ayrı-ayrı dövlətlərin milli məhkəmə təcrübəsi təşkil edir.

**Tədqiqatın məqsədi** müvafiq beynəlxalq hüquq normaları və dövlətdaxili qanunvericilik aktları, bu sahədə meydana çıxan fikir müxtəlifliyinin geniş təhlili əsasında mülki aviasiyanın antiterror müdafiəsinin beynəlxalq-hüquqi aspektlərini təhlil etmək, beynəlxalq təşkilatların bu sahədə normayaradıcılıq fəaliyyətini araşdırmaq, eləcə də beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının qanunvericiliyinə implementasiyası ilə bağlı müddəaları müəyyənləşdirməkdən ibarət olmaqla, mövcud boşluqların aradan qaldırılması məqsədilə beynəlxalq və dövlətdaxili səviyyədə tənzimetməyə ehtiyacı olan istiqamətlər üzrə yeni normaların qəbuluna dair mühüm təklif və tövsiyələri irəli sürməkdir.

Göstərilən məqsədə nail olmaq üçün dissertasiya işində **aşağıdakı vəzifələr** qarşıya qoyulmuşdur:

- qlobal miqyasda mülki aviasiyanın antiterror müdafiəsinin tarixini qısa şəkildə araşdırmaq, tarixi mərhələlər üzrə hava terrorçuluğunun səciyyəvi əlamətlərini müəyyən etmək və onları müqayisəli təhlil etmək, müasir təhdid metodlarının səciyyəvi cəhətlərini üzə çıxarmaq;
- mülki aviasiyanın antiterror müdafiəsinə dair elmi araşdırmalar və beynəlxalq-hüquqi sənədlərdə mövcud olan fərqli terminləri ("mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə", "hava terrorçuluğu", "hava quldurluğu", "boz ərazilər" və s.) təhlil edərək, onların mahiyyət və məzmununu aydınlaşdırmaq, onların fərqli və oxşar əlamətlərini aşkar etmək;
- mülki aviasiyaya qarşı törədilən terrorçuluq halları nəticəsində özünü büruzə verən təhdid formalarını, zaman etibarilə bu formaların dəyişmə tendensiyasını, habelə həmin cinayətləri törədən şəxslərin şəxsiyyəti və törədilən cinayətin xarakterini araşdırmaq;
- mülki aviasiyaya qarşı törədilən terrorçuluq hallarının siyasi cinayət sayılıb-sayılmaması məsələsini beynəlxalq sənədlər və beynəlxalq təşkilatların qərarları, habelə məhkəmə praktikası əsasında araşdırmaq, onun siyasi cinayət olmadığını elmi və praktiki əsaslarla sübut etmək;
- mülki aviasiya qarşı terrorçuluğun müxtəlif təzahür formalarının digər ictimai-təhlükəli əməllərlə qarşılıqlı əlaqəsini üzə çıxarmaq, xüsusilə törədilən bu növ cinayətlərin kompleks xarakter kəsb etməsinə diqqəti yönəltmək;
- mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması prinsipinin mahiyyət və məzmununu təhlil etmək;
- mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsinə dair universal və regional səviyyədə qəbul olunmuş beynəlxalq sənədləri təhlil etmək, onların üstünlük və çatışmazlıqlarını, o cümlədən tənzimetmə predmeti ilə bağlı fərqli aspektləri müəyyənləşdirmək;



- müxtəlif regional beynəlxalq təşkilatlar çərçivəsində mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə dair səciyyəvi xüsusiyyətləri müqayisəli şəkildə nəzərdən keçirmək;
- İKAO-nun mülki aviasiyanın təhlükəsizliyinə dair gördüşü işlər və normayaradıcılıq fəaliyyəti, habelə hava terrorçuluğu ilə mübarizə sahəsində onun digər beynəlxalq qurumlarla qarşılıqlı əlaqəsini analiz etmək;
- mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə dair Azərbaycan Respublikasının və xarici ölkələrin qanunvericiliyini, habelə ikitərəfli müqavilə praktikasını araşdırmaq.

**Tədqiqatın metodoloji əsasını ümumnəzəri** və sosial-elmi idrak metodları təşkil edir. Dissertasiyada formal-məntiqi və müqayisəli-hüquqi metodlardan daha geniş şəkildə istifadə olunmuşdur. Tədqiqat işində sistemli, müqayisəli, induksiya, deduksiya, konkret-sosioloji, tarixi və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işini hazırlayarkən müəllif Abeyratne R., Ağayev İ.B., Arvanitis P., Benson B.L., Bəşirova G.Z., Bordunov V.D., Deflem M., Dempsey P., Əliyev Ə.İ., Əfəndiyev O.F., Əliyev E.Ə., Folorunso M., Forest J., Haanapel P., Havel B., Hayes B., Herz M., Hindman A., Hoffman B., Hüseynov A.Ə., Hüseynov L.H., Xəlilov Z.Z., Qalkin E.B., Qudman S., Quliyev İ.O., Quliyev V.İ., Qurbanova F.İ., Qyemulla E., Kapitonova E.A., Karber P., Kim İ., King D., Klimek R., Koblen İ., Kraska J., Lefeber R., Lukov V.V., Luli R., Lumina C., Lyaxov A.Q., Martono K, Mayor M.N., Mehdiyev N.H., Məmmədov A.Ə., Məmmədov R.F., Məmmədov R.K., Milde M., Monar J., Mürşüdova S.X., Pidjakov A.Y, Poinciqnon Y., Polski P., Rasmussen D., Rosand E., Sevdimalıyev R.M., Səməndərov F.Y., Sılkina S.M., Siadkovski A., Simon R., Stevenson J., Sudiro A., Suxomlinov D.V., Szabo S., Trikoz E.N., Tuzmuxamedov B.R., Vepxvadze T., Vixman V.V., Volkov Q.A., Xalimova Q.R., Zenelis P. və digər tanınmış alimlərin əsərlərinə istinad etmişdir.

Bundan əlavə, mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasına dair çoxsaylı beynəlxalq sənədlər, ayrı-ayrı beynəlxalq təşkilatların – BMT, İNTERPOL, İKAO, Avropa İttifaqı, Avropa Şurası, MDB, GUAM və digər qurumların normaları, habelə bu sahədə Azərbaycan Respublikasının və çoxsaylı xarici ölkələrin qanunvericilik aktlarının müxtəlif müddəaları, ölkəmizin ikitərəfli müqavilə praktikası qarşılıqlı və müqayisəli əsaslarla geniş şəkildə təhlil olunmuşdur. Eyni zamanda, dünyanın ayrı-ayrı ölkələrində mülki aviasiyanın təhlükəsizliyinə olan təhdidlər və baş verən hava terrorçuluğu faktları, habelə bütün bunların beynəlxalq ictimaiyyətə qarşı istifadə olunması və dünya iqtisadiyyatına mənfi təsiri məsələləri praktiki nümunələr əsasında araşdırılmışdır.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, bu işdə Azərbaycan hüquq elmində ilk dəfə olaraq, beynəlxalq-hüquqi baxımdan mülki aviasiyaya qarşı

terrorçuluq hallarının baş verməsi, bu sahədə mülki aviasiyanın mühafizəsinin və təhlükəsizliyinin təmin edilməsi məsələləri, habelə bununla bağlı beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyinə implementasiyası kompleks şəkildə tədqiq edilmiş, mövcud cinayətlərin törədilməsi nəticəsində meydana çıxan hüquqi nəticələrlə bağlı münasibətləri tənzimləyən beynəlxalq hüquq normaları və dövlətdaxili qanunvericiliyin müqayisəli təhlili aparılmışdır. Tədqiqatın elmi yeniliyi daha konkret olaraq müdafiəyə çıxarılan aşağıdakı **yeni elmi müddəalarla** ifadə olunur:

1. Mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsi müəyyən tarixi mərhələlərdən keçməsinə və hər bir tarixi dövrün səciyyəvi xüsusiyyətlərinin mövcudluğuna baxmayaraq, müasir dövrdə sözügedən sahədə törədilən cinayətlər beynəlxalq birliyə təhdid vasitəsi kimi qiymətləndirilməlidir. Çünki son illər bu qəbildən olan ictimai-təhlükəli əməllərin törədilməsi onu göstərir ki, həmin hadisələrin arxasında nə siyasi və ya şəxsi tələblər, nə də istintaq və ya məhkəmədən qaçıb gizlənmək məqsədi güdülür. Əsas məqsəd beynəlxalq birliyə qarşı təhdid və beynəlxalq ictimaiyyətin hüquqazidd qərarların qəbuluna məcbur edilməsidir. Digər səciyyəvi əlamət isə ondan ibarətdir ki, həmin cinayətlərin törədilməsində qlobal səviyyədə mövcud olan və universal beynəlxalq qurumların (məsələn, BMT-nin) sanksiyalarının hədəfi sayılan müxtəlif terror təşkilatlarının rolu özünü daha çox büruzə verməkdədir.

2. Mülki aviasiyaya qarşı qanunsuz hərəkətlərin yeksənək və digər cinayətlərdən təcrid olunmuş şəkildə nəzərən keçirilməsi düzgün hal hesab oluna bilməz. Çünki söhbət təkcə hava gəmisinə hər hansı silah və ya partlayıcı vasitə ilə müdaxilədən getmir, bu həm də mülki aviasiyanın normal fəaliyyətinə dair bütün sistemlərə istənilən qanunsuz müdaxiləni əhatə edir. İkincisi, cinayəti törətmiş şəxsin şəxsiyyəti və onun kriminal keçmişi də bu işdə mühüm rol oynayır. Məhz bu baxımdan, sözügedən cinayətin müxtəlif ictimai-təhlükəli əməllərlə (məsələn, kibercinayətkarlıq, terrorçuluğun maliyyələşdirilməsi, “çirkli” pulların yuyulması, qanunsuz miqrasiya, şəxsi məlumatların saxtalaşdırılması və ya yol sənədlərinin saxtalaşdırılması və s.) qarşılıqlı əlaqədə nəzərdən keçirilməsi daha məqsədəmüvafiq olardı.

3. Mülki aviasiyanın təhlükəsizliyinin pozulması və onun antitteror müdafiəsinin təmin edilməsi zərurəti təkcə “uçuşların təhlükəsizliyinə təhdid” kateqoriyası ilə məhdudlaşmamalı, geniş mənada nəzərdən keçirilməlidir. Yəni, həmin hüquqi tənzimetmə dairəsinə “uçuşda”, “xidmətdə” və ya “istismarda” olan mülki təyyarəyə, onun ekipajına, sərnişinlərə və ya əmlaka qarşı qanunsuz hərəkətlər, aeronaviqasiya və qeydiyyat sistemlərinə müdaxilə halları da aid edilməlidir. Eyni zamanda, beynəlxalq humanitar hüquq normalarının tətbiq edildiyi hallar istisna olmaqla, silahlı münaqişələr zamanı mülki hava gəmisinin



qurudan silahla vurulması da mülki aviasiyaya qarşı terrorçuluq aktı kimi nəzərdən keçirilməlidir.

4. 11 sentyabr 2001-ci il hadisələri hava terrorçuluğunun törədilməsi sahəsində yeni tendensiyanın başlanğıcının əsasını – mülki hava gəmisinin kütləvi dağıdıcı vasitə qismində istifadəsi təcrübəsini formalaşdırdı. Doğrudur, həmin halın qarşısının alınması və onunla mübarizə məsələlərinə dair müddəalara İKAO-nun “yumşaq hüquq” normalarında rast gəlinsə də, bununla bağlı dövlətlərin öhdəliyini nəzərdə tutan hər hansı beynəlxalq müqavilə mövcud deyildir. Məhz sözügedən məsələnin universal səviyyədə tənzimlənməsi üçün lazımi beynəlxalq-hüquqi sənədin qəbulu zəruridir.

5. Universal və ya regional səviyyədə siyasi cinayətin mahiyyət və məzmununun hüquqi baxımdan dəqiq şəkildə müəyyənləşdirilməməsi mülki aviasiya əleyhinə törədilən qanunsuz hərəkətlərin bu kateqoriya hüquqpozmalara aid edilməməsi fikrini müəyyən hallarda şübhə altına alsa da, bu sahədə beynəlxalq təşkilatların qərarları və beynəlxalq məhkəmə təcrübəsi mütləq şəkildə nəzərə alınmalıdır. Bu növ cinayəti törətmiş şəxs heç bir halda siyasi sığınacaq üçün subyekt sayıla və törədilən əməl siyasi hüquqpozma hesab oluna bilməz. Onun mühakimə olunması və ya müvafiq sorğu üzrə ekstradisiya olunması dövlətlərin əsas vəzifəsidir.

6. Beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmini prinsipi kompleks rəhbər başlanğıc sayılmaqla, beynəlxalq cinayət hüququ və beynəlxalq hava hüququ normalarını özündə birləşdirir. Eyni zamanda, sözügedən rəhbər başlanğıc dövlətlərin qarşısında duran vəzifə qismində nəzərdən keçirilməklə yanaşı, müəyyən elementləri özündə birləşdirir. Həmin elementlərə hava limanlarının təhlükəsizliyi və etibarlılığının təmin olunmasında müasir informasiya-texnologiyaları vasitələrinin rolunun düzgün dəyərləndirilməsi və kənar müdaxilə risklərinin minimuma endirilməsi, mümkün və potensial təhdid formalarının nəzərə alınması, eləcə də hava limanına və ya mülki hava gəmisinə daxil olmaqla terrorçuluqla əlaqəli hər hansı cinayət törətməyə meylli olan sərnişinlərin zərərsizləşdirilməsi imkanlarının qiymətləndirilməsi aid edilməlidir. Bu sahədə mövcud olan mümkün təhdid meyarları isə dövlətin təhlükəsizliyinin tərkib elementləri və regional xüsusiyyətlər nəzərə alınmaqla nəzərdə tutulmalıdır.

7. Universal səviyyədə mülki aviasiyanın antiterror təhlükəsizliyinin təmin edilməsi bir sıra əlamətlər baxımından mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, formalaşdırılan normativ və institusional mexanizmlər analoji regional və milli mexanizmlərin formalaşdırılması üçün ilkin hüquqi baza rolunu oynayır. *İkincisi*, mülki aviasiyanın antiterror təhlükəsizliyinin təmin edilməsi sahəsində qəbul olunan universal sənədlər təcrübəyə əsaslanmaqla, baş verən yeni cinayət halları ilə mübarizədə mövcud boşluqların aradan

qaldırılmasına yönəlmişdir. *Üçüncüsü,* bu kimi cinayətləri törədərək ölkəni tərk edən, yaxud istintaqdan və ya məhkəmədən qaçıb gizlənən şəxslərin yerinin müəyyən olunması, həbsi və ekstradisiyası məqsədilə görülən tədbirlər də dövlətdaxili yurisdiksiyadan kənara çıxaraq universal mexanizmlər səviyyəsində həyata keçirilir. Nümunə qismində BMT Təhlükəsizlik Şurası və İNTERPOL-un birgə nəşr etdiyi xüsusi istiqamətləndirmələri göstərmək olar. *Dördüncüsü,* mülki aviasiyanın antiterror təhlükəsizliyinin təmin edilməsinə dair universal beynəlxalq hüquqi sənədlərin qəbulu uzun proses və zaman tələb etməsinə baxmayaraq, bu sahədə beynəlxalq təşkilatların qərarları daha çevik rol oynamaqla yeni hüquqi normaların formalaşmasına təkan verir.

8. Mülki aviasiyanın antiterror müdafiəsinin effektivliyinin artırılması məqsədilə BMT, İNTERPOL və İKAO-nun ekspert və nümayəndələrindən ibarət xüsusi işçi qrupunun formalaşdırılması məqsədəmüvafiq hesab edilə bilər. Təklif olunan işçi qrupu mülki aviasiyada mövcud boşluqlardan və ya zəif mühafizə olunan elementlərdən istifadə etməklə, törədilə biləcək yeni cinayətlərin qarşısının alınmasına dair preventiv tədbirlər görmək imkanına malik olmalıdır. Bu, xüsusilə, yük yerlərinə təhlükəli vasitələrin yerləşdirilməsi, saxta göstəricilərdən istifadə etməklə sərnişin qeydiyyatının imkanlarından yararlanmaq, saxta yol sənədlərindən istifadə etmək və s. kimi halların qarşısının alınmasına dair tədbirləri əhatə etməlidir. Eyni zamanda, bu qrup hər üç beynəlxalq təşkilatın lazımi məlumat bazalarına qoşulmaqla, onlardan sərbəst istifadə imkanlarına malik olmalıdır.

9. MDB çərçivəsində mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsi ilə bağlı regional beynəlxalq-hüquqi sənədlərin müddəaları əsasında (məsələn, "Mülki aviasiya və hava məkanından istifadə haqqında" 1991-ci il Sazişi) bəzi müəlliflər tərəfindən irəli sürülən "vahid hava məkanı" konsepsiyası müasir dövr üçün real və səmərəli hal hesab edilə bilməz. Çünki bunun qeyri-effektivliyi ondan ibarətdir ki, mövcud səhəvi nəzarət mexanizmləri sadəcə əməkdaşlığı əlaqələndirmək naminə fəaliyyət göstərir. Bu sahədə effektivliyin tam şəkildə təmin edilməsi üçün regional xüsusiyyətlər nəzərə alınmaqla, birbaşa təsir qüvvəsinə malik qərarlar qəbul etmək səlahiyyətini özündə ehtiva edən müstəqil qurumun yaradılması daha düzgün olardı. Lakin sonuncu məsələ də MDB-nin hüquqi təbiəti ilə tam ziddiyyət təşkil edir. Digər tərəfdən, üzv-dövlətlərin qanunvericiliyinin müxtəlifliyi və bu sahədə unifikasiyanın zəruriliyi baxımından irəli sürülən "vahid hava məkanı" konsepsiyası qeyri-məqbul hesab edilməlidir.

10. Regional beynəlxalq təşkilatlar səviyyəsində mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsi özünün səciyyəvi cəhətləri ilə seçilir. Belə ki, Afrika İttifaqında bu özünəməxsusluq həm regional, həm də sub-regional çərçivədə ayrı-ayrı təşkilati mexanizmlərin mövcudluğu formasında təzahür edir. Lakin əksər region ölkələrinin iqtisadi inkişafının aşağı səviyyədə olması



inteqrasiyanın lazımi formada həyata keçirilməsinə süni maneələr yaradır. Eyni zamanda, digər regional beynəlxalq təşkilatlar mülki aviasiyanın antiterror müdafiəsinin vacibliyini mütəşəkkil cinayətkarlıq (məsələn, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və s.), terrorçuluq (məsələn, Asiya-Sakit okean İqtisadi Əməkdaşlıq Təşkilatı və s.) və ya beynəlxalq terrorçuluqla (məsələn, İslam Əməkdaşlığı Təşkilatı və s.) mübarizə kontekstində nəzərdən keçirir. Bununla belə, mövcud yanaşmalar həmin beynəlxalq təşkilatların mülki aviasiyanın antiterror müdafiəsi sahəsində fəaliyyətinə heç bir halda xələl gətirmir. Çünki bu yanaşmalar həmin region çərçivəsində cinayətkarlığın xüsusiyyəti və xarakteri ilə bağlı olsa da, yekun məqsəd və region dövlətlərinin əsas öhdəliyi mülki aviasiya əleyhinə terrorçuluq halları ilə mübarizə, onun qarşısının alınması və aradan qaldırılmasıdır.

11. Mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə dair müddəaların əksər xarici dövlətlərin aviasiya və ya terrorçuluqla mübarizə haqqında qanunvericilik aktlarında oxşar şəkildə nəzərdə tutulmasına baxmayaraq, bir sıra hallarda istisnalara da rast gəlmək mümkündür. Belə ki, mülki aviasiyanın kibertəhlükələrdən qorunması (Ukrayna), terrorçuluqla bağlı konvensional cinayətlərin nəzərdə tutulmasına (Cənubi Afrika Respublikası) dair müddəaların təsbit olunması ilə yanaşı, aviasiyanın təhlükəsizliyi və mühafizəsi (İndoneziya), hava gəmilərinin qanunsuz ələ keçirilməsi ilə mübarizə (Mavriki) haqqında xüsusi qanunvericilik aktlarının mövcudluğuna da rast gəlmək mümkündür. Bəzi dövlətlər (ABŞ) isə mülki aviasiya əleyhinə törədilən cinayətlərin bir sıra kateqoriyalarını (məsələn, hava gəmisində törədilən cinayətlər, hava gəmisinə qarşı törədilən cinayətlər, dağıdıcı vasitələrlə törədilən cinayətlər, terrorçuluqla bağlı digər hüquqpozmalar və s.) öz qanunvericiliyində nəzərdə tutmuşdur. Qeyd edilənlərə baxmayaraq, dövlətlərin bu istiqamətdə hərtərəfli əməkdaşlıqlarının inkişaf etdirilməsi və birgə mübarizədə dövlətdaxili qanunvericiliklərinin daha da yaxınlaşdırılması zəruridir.

12. Azərbaycan Respublikasının qanunvericiliyində mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə kompleks yanaşma özünü büruzə versə də, bu sahədə çatışmazlıq vahid qanunvericilik aktının mövcud olmaması ilə əlaqədardır. Mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması, bu sahədə dövlət siyasətinin əsas istiqamətləri, mülki aviasiyanın fəaliyyətinin prinsipləri, habelə qanunsuz müdaxilə hesab edilən halların siyahısı həmin qanunvericilik aktında aydın şəkildə ifadə edilməlidir. Yəni, hazırda nəqliyyat, aviasiya və digər qanunvericilik aktlarında təsbit olunmaqla, mülki aviasiyanın fəaliyyətinə yönəlmiş dağınıq normaların vahid qanunvericilik aktında birləşdirilməsi məqbul hesab olunmalıdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatçının təklif və tövsiyələrindən Azərbaycan Respublikasında mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə dair normayaradıcılıq fəaliyyətində, bu sahədə baş verə biləcək cinayətlərin qarşısının alınması və aradan qaldırılmasına təsir göstərə

bilən bir sıra qanunvericilik aktlarının təkmilləşdirilməsində, eləcə də lazımi beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyasında istifadə oluna bilər. Bundan başqa, mövcud sferada aparılan araşdırmaların müvafiq beynəlxalq qurumların fəaliyyətinin təkmilləşdirilməsi və sahəvi beynəlxalq-hüquqi sənədlərdə olan boşluqların aradan qaldırılması üçün nəzərə alınması mümkündür. Həmçinin, dissertasiya işində irəli sürülən təklif və tövsiyələr mövcud sahədə səlahiyyətli dövlət qurumlarının strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bununla bağlı islahatların həyata keçirilməsi üçün lazımi elmi-nəzəri mənbə rolunu oynaya bilər. Dissertasiya tədqiqatının materialları və müddəaları beynəlxalq hüquqla milli hüquq sisteminin (Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyi kontekstində) qarşılıqlı əlaqəsi baxımından gələcək elmi-nəzəri araşdırmalar üçün də əsas baza rolunu oynaya bilər. Eyni zamanda, dissertasiya materiallarından beynəlxalq cinayət hüququ, beynəlxalq təşkilatlar hüququ, beynəlxalq hava hüququ, beynəlxalq dəniz hüququ, insan hüquqlarının müdafiəsi, cinayət hüququ, Avropa hüququ və s. istiqamətlərdə tədris prosesində geniş istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi BDU Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasında yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyasının mövzusu üzrə Azərbaycan Respublikası, Ukrayna və Moldovanın nüfuzlu elmi jurnallarında, o cümlədən beynəlxalq konfrans materiallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqat işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

**I Fəsil "Mülki aviasiyanın antiterror müdafiəsinin mahiyyəti və əsas istiqamətləri" adlanmaqla özündə iki paraqrafı birləşdirir.**

**Birinci paraqrafda** mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi kontekstində hava terrorçuluğu ilə mübarizənin tarixi və səciyyəvi xüsusiyyətləri təhlil olunur.



Mülki aviasiyanın təhlükəsizliyinin tarixi kommersiya aviasiyasının fəaliyyətə başlaması ilə eyni dövrə təsadüf edir. İlk təyyarə qaçırılması faktı 1930-cu illərdə qeydə alınsa da, hava daşımalarının struktur baxımından hədəfə alınması 1960-cı illərin sonlarından etibarən özünü büruzə verməyə başlamışdır. Mülki hava gəmilərinin qaçırılmasına qarşı ilk mübarizə tədbirlərindən 1970-ci illərdə geniş miqyasda istifadə olunmağa başlanması sərnişinlərin və əl baqaj yüklərinin ekran vasitəsilə yoxlanılması tendensiyasının gücləndirilməsi bunun bariz nümunəsi sayıla bilər. Lakin görülən tədbirlər heç də hava terrorçuluğunun aradan qaldırılmasına gətirib çıxarmadı, əksinə, terrorçular müasir dövrdə yeni üsul və vasitələrdən istifadə etməklə, mülki aviasiyaya qarşı təhdidləri genişləndirməkdə davam edirlər. Belə ki, XX əsrin 40-60-cı illərində hava gəmisinin qaçırılması üsuluna önəm verilməklə yanaşı, cinayətkarlar bunu cinayət təqibi və məhkəmədən gizlənmək məqsədilə edirdilər. Müasir dövrdə, xüsusilə 2001-ci il 11 sentyabr hadisələrindən sonra isə mülki hava gəmisindən dağıdıcı vasitə kimi istifadə təcrübəsi özünü büruzə verdi.

Bununla yanaşı, hava terrorçuluğu ilə mübarizənin nəzərdən keçirilməsi zamanı bir sıra digər meyarların qiymətləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Buraya cinayəti törədən şəxsin psixi və ruhi vəziyyəti (məsələn, anlaqlı olması, qanunun yerinə yetirilməsindən yayınma, psixi pozuntunun mövcudluğu, siyasi şantajdan istifadə etmə və s.), lazımi obyektlərin təhlükəsizliyinin təmin edilməsindəki boşluqlar, daxili müdaxilənin, yəni partlayıcı və ya digər qurğunun mülki hava gəmisinin daxilində yerləşdirilməsi imkanlarının mövcudluğu, habelə mümkün və potensial təhdid formalarının spesifikliyi kimi amilləri aid etmək olar. Digər tərəfdən, bu növ ictimai-təhlükəli əməllərin digər cinayətlərlə qarşılıqlı əlaqədə törədilməsi (kibercinayətkarlıq, şəxsi göstəricilərin saxtalaşdırılması, qanunsuz immiqrasiya, korrupsiya və s.) tendensiyasını da nəzərdən qaçırmaq olmaz. Hətta bunun bariz nümunəsi kimi müasir dövrdə kibercinayətkarlıq mülki aviasiyanın təhlükəsizliyinin pozulması və ona qarşı terror hallarına yol verilməsi üçün əsas vasitələrdən biri hesab olunur. Bu da mülki aviasiyanın kompüter-telekommunikasiya informasiya sistemlərindən asılılığı və İnternetin yol verdiyi imkanlar çərçivəsində terrorçuların bütün məlumatları əldə etməsinin asanlaşması ilə bağlıdır.

Hansı formada adlandırılmasından *(məsələn, "Açıq dəniz haqqında" 1958-ci il Konvensiyasının 15-ci maddəsində sözügedən ictimai-təhlükəli əməl hava quldurluğu kontekstindən yanaşılır)* və cinayətin törədilməsi üçün gətirilən əsasların xarakterindən asılı olmayaraq, mülki aviasiyaya qarşı terror halları heç bir halda siyasi hüquqpozma hesab edilməməklə yanaşı, terrorçuluq faktı kimi qiymətləndirilməlidir. İNTERPOL-un Baş Assambleyasının 1984-cü il tarixli "Nizamnamənin 3-cü maddəsinin tətbiqi haqqında" Qətnaməsi, "Hava gəmisinin qaçırılması haqqında" 1967-ci il Qətnaməsi, 1984-cü il tarixli "Terrorçuluğa aid

edilən adi zorakılıq cinayətləri haqqında" Qətnaməsində təsbit olunan müddəalar bunu tam şəkildə sübut edir. BMT Baş Assambleyasının "Havada təyyarənin ələ keçirilməsi və ya mülki aviasiyanın uçuşuna müdaxilə haqqında" 1970-ci il tarixli 2645 nömrəli Qətnaməsində isə havada mülki təyyarənin ələ keçirilməsi və ya mülki aviasiyanın uçuşuna digər cinayətkar müdaxilə halları sərnişin və ekipaj heyətinin həyat və təhlükəsizliyinə təhdid yaradan, eləcə də həmin şəxslərin insan hüquqlarını pozan cinayətlər kimi xarakterizə olunmuşdur.

Mülki aviasiyaya qarşı qanunsuz müdaxilə aktları və hava terrorçuluğundan danışarkən, 1975-ci ildə tərkibi erməni birləşmələrindən formalaşdırılan terrorçu təşkilatın – "Ermənistanın azadlığı naminə Gizli Erməni Ordusu" (ASALA) adlı terror təşkilatının törətdiyi cinayət faktlarına da diqqət yetirmək yerinə düşərdi. Terrorçu təşkilat tərəfindən 7 avqust 1982-ci ildə Türkiyə Cümhuriyyətinin Ankara şəhərinin Esenboğa beynəlxalq hava limanına təşkil olunan hücumu[8], 15 iyul 1983-cü ildə Fransa Respublikasının Paris şəhərinin Orli beynəlxalq hava limanında "Türkiyə Hava Yolları" şirkətinin xidmətlərindən istifadə edən sərnişinlərə edilən hücumu[9] göstərmək olar. Məhz sonuncu hadisə nəticədə 8 nəfər qətlə yetirilmiş, 61 nəfər yaralanmışdır. Qətlə yetirilənlərin tərkibinə nəzər salsaq, onlardan 4-ü Fransa, 2-si Türkiyə, 1-i İsveç və 1-i isə ABŞ vətəndaşıdır.

**İkinci paraqrafda** mülki aviasiya əleyhinə qanunsuz hərəkətlərin qarşısının alınması və mübarizə tədbirlərinin hüquqi əsası kimi beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmini prinsipinin mahiyyəti və əsas məznunu araşdırılır.

Sözügedən prinsip özündə iki əsas vəzifənin (mülki aviasiyanın etibarlılığının təmin olunması və qanunsuz müdaxilə halları ilə mübarizə) yerinə yetirilməsini şərtləndirməklə yanaşı, beynəlxalq hüququn iki müxtəlif sahəsinin beynəlxalq hava hüququ və beynəlxalq cinayət hüququnun kəsişmə nöqtəsində yerləşən kompleks rəhbər başlanğıc qismində nəzərdən keçirilməlidir. Çünki bu prinsip istər tənzimetmə, istərsə də qoruyucu funksiyanın realizəsini özündə birləşdirir.

Bu rəhbər başlanğıcın mahiyyət və məzmunun daha dərindən mənimsənilməsi üçün bir sıra məsələlər, xüsusilə mülki aviasiyanın təhlükəsizliyinin anlayışı və məzmunu, həmin təhlükəsizliyə yönələn təhdidlərin kateqoriyaları və səciyyəvi xüsusiyyətləri, eləcə də sərnişin və ya mülki aviasiyanın xidmətlərindən istifadə edən şəxs kimi onları törədən insanların kriminal keçmişinin qiymətləndirilməsi geniş təhlil olunmalıdır.

Bütövlükdə mülki aviasiyanın əhəmiyyəti və onun təhlükəsizliyinin təmin olunması təkcə elmi-nəzəri araşdırma obyekti kimi nəzərdən keçirilə bilməz. Çünki

---

[8] Chalk P. Encyclopedia of terrorism. Volume 2: M-Z. Santa-Barbara: ABC-CLIO, 2013, p. 60

[9] Hoffman B. Inside terrorism. Revised and expanded edition. New-York: Columbia University Press, 2006, p. 72-73



həmin yanaşmalara həm də müxtəlif universal beynəlxalq təşkilatların qərarlarında rast gəlmək mümkündür. Bunun bariz nümunəsi kimi BMT-nin "Təyyarənin havada ələ keçirilməsi və ya mülki aviasiya uçuşlarına müdaxilə haqqında" 1970-ci il tarixli 2645 nömrəli Qətnaməsində birbaşa olaraq göstərilmişdir ki, beynəlxalq mülki aviasiya dövlətlər arasında dostluq münasibətlərinin təşviqi və qorunub saxlanması üçün həyati əhəmiyyətli həlqə sayılmaqla yanaşı, onun təhlükəsiz və lazımi qaydada fəaliyyəti isə bütün xalqların maraqlarına cavab verir.

Bir məsələni də nəzərdən qaçırmaq olmaz ki, mülki aviasiyanın təhlükəsizliyinin təmini təkcə rəhbər başlanğıc deyil, həm də ayrı-ayrı dövlətlərin qarşısında duran əsas vəzifə kimi nəzərdən keçirilir. Belə ki, "Aviasiya haqqında" 24 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsində ehtiva edilmiş aviasiya sahəsində dövlətin vəzifələrinin əksəriyyəti məhz aviasiyanın təhlükəsizliyinin təmin edilməsinə yönəlmişdir. Lakin təəssüflər olsun ki, Azərbaycan Respublikasının qanunvericiliyi və ikitərəfli müqavilə praktikası isə aviasiya və uçuşların təhlükəsizliyi anlayışına fərqli kontekstdə yanaşır. Sonuncuya nümunə olaraq "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" 2010-cu il Sazişində aviasiya təhlükəsizliyi (maddə 6) və uçuşların təhlükəsizliyi (maddə 7) barədə müddəaların ayrı-ayrılıqda təsbit olunmasını göstərmək olar.

Xarici dövlətlərin təcrübəsində mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsinə nümunə kimi Polşa bu sahədə proqramlarını üç prinsip (terrorçuların mülki aviasiya obyektlərinə giriş imkanlarının tam məhdudlaşdırılması; terrorçu birinci müdafiə xəttinə daxil olduğu təqdirdə, qabaqlayıcı prosedurların tətbiqi; ikinci müdafiə xəttindən yayınmaqla baş verən terrorçuluq zamanı vurulacaq ziyanın minimuma endirilməsi üçün hava gəmisinin strukturu və sistemlərinin möhkəmləndirilməsi) üzərində qurmuşdur. Bundan əlavə, Çexiyada nəqliyyatın təhlükəsizliyinin təmin olunması sahəsində hüquq-mühafizə funksiyasını həyata keçirən hava marşallarının fəaliyyətinin müəyyən reyslər üzrə tətbiqi, Macarıstanda isə kimyəvi, bioloji və nüvə silahlarının realizəsi vasitəsilə törədilə biləcək potensial terror hücumlarının qarşısının alınması məqsədilə müəyyən qabaqlayıcı tədbirlərin həyata keçirməsinə dair qanunvericilik müddəalarının təsbit olunması böyük maraq doğurur.

**II Fəsil "Mülki aviasiyanın antiterror müdafiəsinin beynəlxalq-hüquqi mexanizmləri" adlanmaqla üç paraqrafı özündə ehtiva edir.**

**I paraqraf** "Universal mexanizmlərin fəaliyyətinin mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinə təsiri" adlanır və özündə iki yarımparaqrafı birləşdirir.

**Birinci yarımparaqrafda** müqayisəli təhlil və sistemli yanaşmaya uyğun olaraq, mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasında Birləşmiş Millətlər Təşkilatının fəaliyyətinin normayaradıcılıq və institusional

aspektləri geniş təhlil edilmişdir. Nəticədə qənaətə gəlinmişdir ki, bu sahədə BMT-nin normayaratma funksiyası onun institusional mexanizmlərinin fəaliyyətindən daha effektiv və öz səciyyəviliyi ilə seçilir. Qeyd olunanları nəzərə alaraq, mülki aviasiyanın antiterror müdafiəsinin təminində BMT-nin rolunu üç aspektdən qiymətləndirmək olar:

1) BMT mülki aviasiyaya qarşı terror və əlaqəli cinayətləri müəyyənləşdirən, habelə onların törədilməsinin qarşısını alınması və qadağan edilməsini nəzərdə tutan beynəlxalq-hüquqi sənədlərin qəbuluna öz töhfəsini bəxş etmişdir. Məhz bunun nəticəsində "Hava gəmisində törədilmiş cinayətlər və bir sıra digər aktlar barədə" 1963-cü il Tokio Konvensiyası, "Hava gəmilərinin qanunsuz ələ keçirilməsinə qarşı mübarizə haqqında" 1970-ci il Haaqa Konvensiyası, "Mülki aviasiyanın təhlükəsizliyi əleyhinə yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında" 1971-ci il Monreal Konvensiyası və həmin Konvensiyaya "Beynəlxalq mülki aviasiyaya xidmət göstərən hava limanlarında qanunsuz zorakılıq aktları ilə mübarizə haqqında" 1988-ci il Əlavə Protokolu bu növ cinayətlərlə mübarizədə əsas beynəlxalq-hüquqi vasitələrdən biri hesab olunur. Doğrudur, qəbul edildiyi zaman etibarilə müəyyən çatışmazlıqlara malik olsalar da, normalarının genişləndirici təfsiri onların müasir dövr üçün aktuallığını qoruyub saxlamağa imkan vermişdir. Nümunə qismində Monreal Konvensiyası və ona Əlavə Protokolda hava limanının xidmətlərinin pozulmasına dair müddəa kibercinayətkarlıqla sıx qarşılıqlı əlaqədə qiymətləndirilə bilər. Çünki hava limanındakı kompüter sistemlərinin standart fəaliyyətinə müdaxilə edən hər hansı kompüter fəaliyyətinin mülki aviasiya əleyhinə cinayətin törədilməsi üçün hər hansı imkan və şərait yaratması qaçılmazdır.

2) Mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsi sahəsində BMT-nin qərarları universal səviyyədə müvafiq fəaliyyətin həyata keçirilməsinə öz töhfəsini bəxş etməkdədir. Nümunə qismində təşkilatın Təhlükəsizlik Şurasının "Mülki aviasiya xidmətlərinə qarşı terror hücumlarının qarşısının alınması və mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması haqqında" 2016-cı il tarixli 2309 nömrəli Qətnaməsini göstərmək olar.

3) Bütövlükdə terrorçuluqla mübarizə sahəsində özünün normayaradıcılıq kontekstində BMT müasir dövrdə meydana çıxan yanaşmaları mütləq şəkildə nəzərə almaqdadır. Təşkilatın Baş Assambleyasının 2006-cı il tarixli 60/288 nömrəli Qətnaməsi ilə təsdiq olunan "BMT-nin Terrorçuluqla mübarizə üzrə Strategiyası" məhz bunun "məhsulu" hesab oluna bilər. Təhlükəsizlik Şurasının "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər haqqında" 2001-ci il tarixli 1373 nömrəli Qətnaməsində isə beynəlxalq terrorçuluq kimi hər hansı hərəkətlərin beynəlxalq sülh və təhlükəsizliyə təhdid vasitəsi qismində çıxış etməsi birbaşa olaraq vurğulanmışdır.



Bununla belə, mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsinin cinayət-hüquqi aspektləri sahəsində BMT-nin İNTERPOL-la qarşılıqlı əlaqəsi məsələsinə də diqqət yetirmək yerinə düşərdi. Həmin əməkdaşlığın ən mühüm forması isə 2005-ci ildən etibarən İNTERPOL-BMT Təhlükəsizlik Şurası tərəfindən birgə xüsusi istiqamətləndirmələrin nəşr olunmasıdır. Bu istiqamətləndirmələr BMT-nin sanksiyalarının hədəfi olan şəxslər və təsisatlara münasibətdə hesabların dondurulması, ərazi üzrə səfərlərin qadağan olunması və silahlara qadağan qoyulması kimi məhdudlaşdırıcı tədbirləri özündə ehtiva edir.

**İkinci yarımparaqrafda** sahəvi təşkilati mexanizm kimi İKAO-nun beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təminində rolu və onun antiterror müdafiəsinin təşkilinə təsiri məsələləri araşdırılmışdır.

İKAO-nun əhəmiyyəti bir neçə aspektlər – beynəlxalq-hüquqi sənədlərin və təlimat xarakterli normaların qəbulu, müxtəlif beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığın inkişafı, beynəlxalq mülki aviasiyanın təhlükəsizliyinin təmin olunmasına yönəlmiş standart və tövsiyələrin işlənib hazırlanması və tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

İKAO çərçivəsində beynəlxalq-hüquqi sənədlərin işlənib hazırlanması və qəbuluna gəldikdə, buna nümunə qismində "Hava gəmisi tərəfindən üçüncü şəxslərə dəymiş zərərin əvəzinin ödənilməsi haqqında" 2009-cu il Konvensiyası, "Hava gəmisinin iştirakı ilə qanunsuz müdaxilə aktları nəticəsində üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi haqqında" 2009-cu il Konvensiyası, 2010-cu il tarixli "Beynəlxalq mülki aviasiyaya qarşı qeyri-qanuni aktlarla mübarizə haqqında" Pekin Konvensiyası və Protokolunu göstərmək olar. Sonuncu sənədlər isə yeni tendensiyaların nəzərə alınması və hava terrorçuluğunun müasir formalarının dəf edilməsi baxımından mühüm beynəlxalq-hüquqi baza hesab olunur. Çünki əvvəlki analoji beynəlxalq sənədlərdən fərqli olaraq, Pekin Konvensiyası və Protokolu mülki aviasiya əleyhinə hüquqpozmaların geniş siyahısını və yeni cinayət tərkiblərini müəyyən etmişdir. Digər yeniliklər də həmin sənədlərdə öz əksini tapmışdır. Məsələn, mülki aviasiyaya qarşı əsas cinayətlərin törədilməsi ilə bilavasitə bağlılığa malik olan yeni əlavə hüquqpozmaların tərkibinin formalaşdırılması, cinayəti törədən şəxsə münasibətdə aktiv vətəndaşlıq yurisdiksiyasının tətbiqi, müvafiq sahədə dövlətlərin əməkdaşlığının hüquqi əsaslarını nizamlanması kontekstində insan hüquqlarının təşviqi, müdafiəsi və təmin olunmasına dair normaların nəzərdə tutulması, hüquqi şəxslərin məsuliyyətinə dair normaların təsbit olunması, silahlı münaqişə zamanı silahlı qüvvələr tərəfindən mülki aviasiyaya qarşı törədilən istənilən cinayət əməlinin məhkəmə təqibi və cəzalandırılmasının beynəlxalq hüquq normalarına əsasən həyata keçirilməsi və s.

11 sentyabr 2001-ci il terror hadisələri isə öz-özlüyündə İKAO-nun normayaradıcılıq fəaliyyətində yeni mərhələ hesab oluna bilər. Məhz bunun nəticəsindədir ki, İKAO-nun "Mülki aviasiyanın qırğın silahları kimi sui-istifadə olunması və mülki aviasiyanı cəlb etməklə törədilən digər terror aktları haqqında" 2001-ci il Bəyannaməsi hava gəmisinin qırğın silahı vasitəsi kimi istifadə olunmasını ictimai-təhlükəli əməl kimi tövsif etmişdir. Bu beynəlxalq sənədin səciyyəvi xüsusiyyətlərindən biri terrorçuluq aktlarının adi humanizm düşüncəsinə, cəmiyyətin davranış normalarına zidd olan, habelə beynəlxalq hüququn pozuntusu sayılan əməl kimi nəzərdən keçirilməsidir. Məhz bunun davamı olaraq Almaniya Konstitusiya Məhkəməsinin çıxartdığı qərarda qeyd etdiyi kimi, mülki hava gəmisindən qətl, qırğın və dağıdıcı silah vasitəsi kimi istifadə edən terrorçular *hostis humani generis* hesab olunmaqla, beynəlxalq hüquqla nəzərdə tutulan heç bir müdafiədən istifadə edə bilməzlər[10].

**II paraqraf** "Mülki aviasiyanın antiterror müdafiəsi sahəsində regional hüquqi tənzimetmənin rolu" adlanır və iki yarımparaqrafdan ibarətdir.

**Birinci yarımparaqraf** mülki aviasiyanın antiterror müdafiəsi ilə bağlı Avropa regional təşkilatlarının normayaradıcılıq fəaliyyəti və təşkilati mexanizmlərinin rolunun təhlilinə yönəlmişdir.

Avropa regionunda mövcud olan təşkilatlar içərisində mülki aviasiyanın təhlükəsizliyinin təmin olunmasının daha təkmil formasına Avropa İttifaqında rast gəlmək mümkündür. Bu həmin regional qurumun hüquqi təbiəti və onun dövlətüstü xarakterə malik olması, nəticədə qanunvericilik aktları vasitəsilə mülki aviasiyaya qarşı törədilən cinayətlərə görə cəza tədbirlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Bunun bariz nümunəsi kimi "Terrorçuluqla mübarizə haqqında" 2002-ci il tarixli Çərçivə Qərarı və həmin sənədə dəyişiklikləri nəzərdə tutan 2008-ci il Reqlamenti, İttifaq Şurasının 21 sentyabr 2001-ci il tarixli Fəaliyyət Planı və həmin sənədin həyata keçirilməsinə yönəlmiş "Terrorçuluqla mübarizə üzrə Tədbirlər Siyahısı", "Terrorçuluqla mübarizə çərçivəsində ayrı-ayrı şəxslər və təsisatlara münasibətdə xüsusi məhdudlaşdırıcı tədbirlərin müəyyən edilməsi haqqında" 27 dekabr 2001-ci il tarixli Reqlament, Aİ-nin Şurasının "Terrorçuluqla mübarizə məqsədilə xüsusi tədbirlərin həyata keçirilməsi haqqında" 21 dekabr 2001-ci il tarixli Ümumi Mövqeyi, 30 noyabr 2005-ci il tarixli "Avropa İttifaqının terrorçuluqla mübarizə üzrə Strategiyası", Aİ Şurasının 11 iyun 2004-cü il tarixli "Terrorçuluqla mübarizə üzrə Fəaliyyət Planı", Avropa Parlamenti və Aİ Şurasının 3 aprel 2014-cü il tarixli "Mülki aviasiyada baş verən hadisələr barədə hesabat təqdim olunması, təhlili və nəzarəti haqqında" birgə Reqlamenti və digər sənədləri göstərmək olar.

---

[10] Huang J. Aviation safety through the rule of law: ICAO`s mechanisms and practices. Alphen aan den Reijn: Wolters Kluwer International, 2009, p. 100.



İttifaqın institutları da mülki aviasiyanın təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edirlər ki, bu da öz əksini yekun sənədlərdə (məsələn, Avropa Komissiyasının 2001-ci il tarixli "Aviasiyanın təhlükəsizliyinə dair Yaşıl Kitab") tapır. Bundan əlavə, İttifaq çərçivəsində mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasının effektivliyi həm ikitərəfli əməkdaşlığın *(məsələn, 2009-cu il tarixli "Avropa İttifaqı və Kanada arasında hava nəqliyyatına dair Saziş", 2011-ci il tarixli "Mülki aviasiyanın təhlükəsizliyinin tənzimlənməsi sahəsində Amerika Birləşmiş Ştatları və Avropa İttifaqı arasında Saziş", 2011-ci il tarixli "Avropa İttifaqı və Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında əməkdaşlığın genişləndirilməsi üçün əsasların təmin edilməsinə dair Saziş" və s.)* geniş inkişafı, həm də təşkilat çərçivəsində sahəvi institusional mexanizmlərin fəaliyyəti ilə bağlıdır. Sonuncuya nümunə qismində AVROPOL, FRONTEX, Aviasiya təhlükəsizliyi üzrə Avropa Agentliyi, yaxud üzv-dövlətlərin polis rəhbərlərini öz sıralarında birləşdirməklə, qeyri-rəsmi strateji qrup formasında cinayətkarlığa qarşı mübarizə shəsində əməkdaşlığı həyata keçirən Polis Rəhbərlərinin İşçi Qrupu kimi qurumları göstərmək olar.

Avropa regionunda fəaliyyət göstərən digər beynəlxalq təşkilatlar da mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasında özünəməxsus şəkildə iştirak edirlər. Belə ki, Avropa Şurası bu prosesdə normayaradıcılıq funksiyasının həyata keçirilməsi (məsələn, Nazirlər Komitəsinin "Hava quldurluğu haqqında" 29 iyun 1970-ci il Qətnaməsi, Parlament Assambleyasının "Hava nəqliyyatında terrorçuluq: təhlükəsizliyin möhkəmləndirilməsi üsulları haqqında" 2002-ci il tarixli Qətnaməsi və s.) baxımından iştirak etdiyi halda, ATƏT daha çox institutlararası əməkdaşlığın inkişafına xüsusi önəm verir. Hətta tərəfdaşları ilə birgə ATƏT-in təşkil etdiyi müvafiq tədbirlər (məsələn, 2004-cü ildə keçirilən "Daşına bilən zenit-raket kompleksləri mülki aviasiya üçün təhdid vasitəsidir" mövzusunda ekspertlər üçün seminar) bunun bariz nümunəsi sayılmalıdır.

**İkinci yarımparaqraf** MDB və digər regional təşkilatlar çərçivəsində mülki aviasiyanın antiterror müdafiəsinə dair əməkdaşlığın əsas xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir.

İlk növbədə, qeyd etmək lazımdır ki, mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasının regional aspektləri özünü müxtəlif kontekstdən büruzə verir. Məsələn, MDB çərçivəsində mülki aviasiyanın antiterror müdafiəsinin təmin olunmasına dair bir sıra beynəlxalq-hüquqi sənədlərin *("Mülki aviasiya və hava məkanından istifadə haqqında" 1991-ci il Sazişi, "Mülki aviasiyanın qanunsuz müdaxilə hərəkətlərindən qorunmasının təmin edilməsi sahəsində əməkdaşlıq haqqında" 1995-ci il Sazişi, MDB Hökumət Başçıları Şurasının 22 noyabr 2007-ci il tarixli qəbul etdiyi "MDB-nin üzv-dövlətlərində mülki aviasiyanın inkişafının və uçuşların təhlükəsizliyinin artırılmasına dair*

*tədbirlərin əsas istiqamətləri" adlı sənəd və s.)* mövcudluğuna baxmayaraq, bu sahədə institusional mexanizmlərinin fəaliyyətinin effektivliyi nəzərə çarpacaq dərəcədə güclü deyildir. Bəzi beynəlxalq təşkilatlarda isə mülki aviasiyanın antiterror müdafiəsi bütövlükdə terrorçuluqla mübarizə sahəsində fəaliyyət göstərən ixtisaslaşmış regional qurum çərçivəsində təmin edilir. Nümunə olaraq 1999-cu ildə yaradılan Terrorçuluq Əleyhinə Amerikaarası Komitənin fəaliyyət istiqamətlərindən biri kimi hava limanlarının təhlükəsizliyinin təmin olunmasını göstərmək olar. Afrika regionunda isə mülki aviasiyanın sub-regional təhlükəsizliyinin təmin olunmasının təşkilati mexanizmlərinin inkişaf etdirilməsi tendensiyası daha geniş yayılmışdır. Bunun bariz nümunəsi kimi Şərqi Afrika Birliyi Mülki Aviasiyanın Təhlükəsizliyi və Mühafizəsinə Nəzarət Agentliyini göstərmək olar. Həmin qurum aviasiya sənayesi və iqtisadi inteqrasiyanın dinamik artımına uyğun olaraq regionda davamlı təhlükəsiz, etibarlı və effektiv mülki aviasiyanın inkişafına görə bilavasitə məsuliyyət daşıyır.

Bununla yanaşı, mülki aviasiyanın antiterror müdafiəsinə dair müddəalar digər regional qurumların fəaliyyətində də rast gəlmək mümkündür. Məsələn, "Terrorçuluq, mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərə mübarizə sahəsində GUÖAM iştirakçı-dövlətlərinin hökumətləri arasında əməkdaşlıq haqqında" 2002-ci il Sazişinin tətbiq istiqamətlərindən biri də hava gəmisinin ələ keçirilməsinin qarşısının alınması və onunla mübarizə tədbirlərinin həyata keçirilməsidir.

Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının üzv-dövlətlərinin liderlərinin Meksikanın Los-Kabos şəhərində 26-27 oktyabr 2002-ci il tarixlərdə terrorçuluqla mübarizənin iqtisadi inkişafa təsiri ilə bağlı məsələlərə həsr olunan görüşündə qəbul olunan yekun bəyanatda beynəlxalq hava nəqliyyatının və insanların hərəkətinin təhlükəsizliyinə dair məsələlərə də toxunulmuşdur. "Cinayətkarlığa, xüsusilə onun mütəşəkkil formalarına qarşı mübarizədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının iştirakçı-dövlətlərinin hökumətləri arasında əməkdaşlıq haqqında" 1998-ci il Sazişi isə törədilən bu növ əməllərə mütəşəkkil cinayətin tərkib elementi kimi yanaşır.

İslam Əməkdaşlığı Təşkilatının "Beynəlxalq terrorçuluqla mübarizə haqqında" 1999-cu il Konvensiyasında sadalanan bir sıra beynəlxalq sənədlər, o cümlədən mülki aviasiyanın antiterror müdafiəsinə dair universal beynəlxalq-hüquqi aktlarda qadağan olunan əməllər terrorçuluq kimi tövsif olunur. Analoji müddəaya 1998-ci il tarixli "Terrorçuluqla mübarizə haqqında" Ərəb Konvensiyasında da raxt gəlmək mümkündür. Digər əsaslar üzrə formalaşan beynəlxalq qurumların qəbul etdiyi yekun sənədlərdə də mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsinə dair müddəalar öz əksini tapmışdır. Məsələn, Türkdilli Dövlətlərin Başçılarının 27 aprel 2001-ci ildə İstanbul şəhərində keçirilən VII Zirvə Toplantısında qəbul olunmuş İstanbul



Bəyannaməsinin 11-ci bəndində ayrı-ayrı türkdilli dövlətlər arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişafını dəstəklədiklərini ifadə etmişlər.

**Üçüncü paraqrafda** mülki aviasiyanın təhlükəsizliyinin və antiterror müdafiəsinin təminində Azərbaycan Respublikasının ikitərəfli müqavilə praktikasının rolu təhlil edilmişdir.

Sözügedən məsələ ilə bağlı meydana çıxan qarşılıqlı münasibətlər müxtəlif ikitərəfli müqavilələrin tənzimetmə obyektinə daxil olduğundan, onların aşağıdakı qaydada sistemləşdirilməsi və təsnifləşdirilməsi məqsədəmüvafiq olardı:

1) hava nəqliyyatı sahəsində müxtəlif dövlətlərlə qarşılıqlı əməkdaşlığın həyata keçirilməsini nəzərdə tutan beynəlxalq müqavilələr. Bu beynəlxalq müqavilələr hava nəqliyyatının digər aspektləri (daşıma hüquqları, aviasiya şirkətinin hüquq və vəzifələri, hava limanlarından istifadə, gömrük prosedurları və s.) ilə yanaşı, mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi məsələlərinə də toxunur. Məsələn, "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" 2002-ci il Sazişi, "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında hava nəqliyyatı haqqında" 2004-cü il Sazişi, "Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" 2006-cı il Sazişi və s.

2) müxtəlif beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi kontekstində mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş beynəlxalq müqavilələr. Nümunə qismində 1996-cı il tarixli "Bir tərəfdən Avropa Birliyi və ona üzv-dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişi" və 2015-ci il tarixli "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı (İKAO) arasında Universal Təhlükəsizliyə Nəzarət üzrə Audit Proqramının Davamlı Monitorinq Yanaşması ilə əlaqədar Anlaşma Memorandumu"nu göstərmək olar.

3) Xarici ölkələrin mülki aviasiyanın inkişafı və onun təhlükəsizliyinə cavabdeh olan qurumları ilə əməkdaşlığın inkişaf etdirilməsinə dair müqavilələr. Məsələn, 2011-ci il tarixli "Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası və Serbiya Respublikasının Mülki Aviasiya Müdiriyyəti arasında" Anlaşma Memorandumu və s.

4) Dövlətlər arasında əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin tənzimlənməsinə yönəlməklə, mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsi və ona qarşı yönəlmiş qanunsuz hərəkətlərlə mübarizəyə dair normaları özündə əks etdirən müqavilələr. Məsələn, "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" 2002-ci il Müqaviləsi və s.

5) Hüquqi normaları özündə əks etdirməyən, lakin həmin normaların formalaşmasına şərait yaradan və mülki aviasiyanın təhlükəsizliyinin təmin edilməsinin vacibliyinə dair dövlətlərin siyasi iradəsini ifadə edən ikitərəfli

sənədlər. Nümunə qismində 2004-cü il aprelin 13-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Birgə Bəyannamə"ni göstərmək olar.

**III Fəsil "Mülki aviasiyanın antiterror müdafiəsi sahəsində beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyası" adlanmaqla iki paraqrafdan ibarətdir.**

**Birinci paraqrafda** mülki aviasiyanın antiterror müdafiəsi sahəsində xarici dövlətlərin qanunvericilik təcrübəsi müqayisəli şəkildə təhlil edilmişdir.

İlk növbədə, bir məsələni nəzərə almaq lazımdır ki, xarici dövlətlərin təcrübəsində mülki aviasiyanın antiterror müdafiəsinə təhdid sayılan mülki hava gəmisinin qaçırılması və ya ələ keçirilməsi cinayətləri müxtəlif kateqoriya ictimai-təhlükəli əməllərin tərkib hissəsi nəzərdən keçirilir. Belə ki, bu əməllər ictimai təhlükəsizlik əleyhinə cinayətlər *(AFR, Danimarka, İsveç, Kosta-Rika, Polşa və s.)*, nəqliyyat əleyhinə cinayətlər *(məsələn, Belarus, Bolqarıstan, Bosniya və Herseqovina, Latviya, Makedoniya, Monqolustan, Özbəkistan və s.)*, şəxsiyyətin azadlığı və digər təminatları əleyhinə cinayətlər *(məsələn, Kolumbiya və s.)*, dövlət təhlükəsizliyi əleyhinə cinayətlər *(məsələn, Oman və s.)*, sülh və beynəlxalq hüquq əleyhinə cinayətlər *(məsələn, Kuba və s.)*, beynəlxalq hüquqla qorunan dəyərlər əleyhinə cinayətlər *(məsələn, Xorvatya və s.)*, beynəlxalq təhlükəsizlik əleyhinə cinayətlər (*məsələn, Estoniya və s.)* və s.-nin tərkib hissəsi kimi nəzərdən keçirilir.

Xarici dövlətlərin təcrübəsində mülki aviasiyanın təhlükəsizliyinin təmin olunması və onun antiterror müdafiəsi məsələsi müxtəlif qanunvericilik aktları vasitəsilə tənzimlənir. Belə ki, müvafiq hüquqi baza qismində aviasiya (məsələn, Çin, Polşa və s.), mülki aviasiya (məsələn, Dominikan və s.), aviasiyanın təhlükəsizliyi və mühafizəsi (məsələn, İndoneziya və s.), yaxud nəqliyyat (məsələn, Ukrayna və s.) haqqında qanunvericilik aktları çıxış edir. Bununla yanaşı, araşdırma obyekti olan müvafiq məsələyə xarici dövlətlərin terrorçuluqla mübarizə haqqında qanunvericilik aktlarında rast gəlmək mümkündür. Doğrudur, ayrı-ayrı dövlətlərdə analoji qanunvericilik aktlarının forması fərqli təsir bağışlasa da, mahiyyət və məzmun tam eynilik təşkil edir. Bunun bariz nümunəsi kimi İndoneziya Respublikasının "Terrorçuluq cinayət hərəkətləri ilə mübarizə haqqında" 18 oktyabr 2002-ci il tarixli Qanunu, İran İslam Respublikasının 19 noyabr 2003-cü il tarixli "Terrorçuluqla mübarizə haqqında" Qanunu, Cənubi Afrika Respublikasının "Terrorçuluqla mübarizə haqqında" 14 fevral 2005-ci il tarixli Qanununu göstərmək olar. Həmin qanunvericilik aktlarının adlarında müəyyən fərqli cəhətlərin mövcudluğuna baxmayaraq, onların hər ikisində mülki aviasiyanın təhlükəsizliyinə təhdid hallarına dair müddəalar öz əksini tapmışdır. Hətta Cənubi Afrika Respublikasının "Terrorçuluqla mübarizə haqqında" Qanununda mülki hava gəmisinin qaçırılması və girov götürmə kimi ictimai-



təhlükəli əməllər beynəlxalq hüquq normalarına istinad olunmaqla konvension cinayətlər kimi xarakterizə edilmişdir.

Bundan əlavə, mülki hava gəmilərinin ələ keçirilməsi və digər əlaqəli cinayətlərlə mübarizə sahəsində xüsusi qanunvericilik aktının mövcud olduğu dövlətlərə (məsələn, Mavriki Respublikası) də rast gəlmək mümkündür.

**İkinci paraqrafda** mülki aviasiyanın antiterror müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyi kompleks nəzərdən keçirilmiş, habelə beynəlxalq hüquq normalarının implementasiyası və onun yaratdığı nəticələr tədqiq edilmişdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası beynəlxalq hüquq normalarının implementasiyasının inkorporasiya üsulundan istifadə edir. Hətta Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsində təsbit olunan beynəlxalq müqavilələrin qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi sayılması barədə müddəa, habelə müəyyən istisnalar nəzərə alınmaqla, dövlətdaxili qanunvericilik sistemi ilə ziddiyyət zamanı dövlətlərarası müqavilələrin tətbiqinin mümkünlüyünə dair 151-ci maddə bunun bariz nümunəsi sayılmalıdır. Mövcud məsələlərə mülki aviasiyanın təhlükəsizliyinin və onun antiterror müdafiəsinin təmin olunmasına dair müddəaları əks etdirən dövlətdaxili qanunvericilik aktlarında da rast gəlmək mümkündür. Belə ki, "Nəqliyyat haqqında" 11 iyun 1999-cu il tarixli Qanunun 2.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə sözügedən qanunvericilik aktında ehtiva olunan normalardan fərqli qaydalar müəyyən edilmişdirsə, həmin müqavilələrin qaydaları tətbiq edilir. 24 iyun 2005-ci il tarixli "Aviasiya haqqında" Qanunun 2-ci maddəsində aviasiya haqqında qanunvericilik sisteminə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxil edilmişdir ki, bunun daha geniş tətbiq imkanlarına sözügedən qanunvericilik aktının digər normalarında (məsələn, maddə 6, 8, 10, 40, 42-43, 45, 49-50 və s.) rast gəlmək mümkündür. Analoji normalara bu və ya digər şəkildə 18 iyun 1999-cu il tarixli "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunun 2 və 17-ci maddələrində də rast gəlinir.

Bundan əlavə, Azərbaycan Respublikasında mülki aviasiyanın antiterror müdafiəsi ilə bağlı meydana çıxan münasibətlərin tənzimlənməsi kompleks nəzərdən keçirilməli və müxtəlif qanunvericilik aktlarının normaları əsasında qiymətləndirilməlidir. Məhz bu baxımdan, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktlarını aşağıdakı qaydada təsnifləşdirmək olar:

1) mülki aviasiyanın fəaliyyəti və təhlükəsizliyi ilə bilavasitə bağlılığı olan, habelə ona qarşı törədilən hüquqpozmaların qarşısının alınmasına və antiterror müdafiəsinin təmin edilməsinə yönəlmiş qanunvericilik aktları. Buraya 11 iyun 1999-cu il tarixli "Nəqliyyat haqqında" Qanun, 24 iyun 2005-ci il tarixli "Aviasiya haqqında" Qanun, 18 iyun 1999-cu il tarixli "Terrorçuluğa qarşı

mübarizə haqqında” Qanun, 1 sentyabr 2000-ci il tarixli Cinayət Məcəlləsi, 1 mart 2016-cı il tarixli İnzibati Xətalar Məcəlləsi və s.

2) mülki aviasiyanın antiterror müdafiəsinin təmin edilməsi ilə bağlı meydana çıxan dolayı və çoxşaxəli münasibətləri tənzimləyən normaları ehtiva edən qanunvericilik aktları. Məsələn, 1 yanvar 2012-ci il tarixli Gömrük Məcəlləsi, “Milli təhlükəsizlik haqqında” 29 iyun 2004-cü il tarixli Qanun, “Polis haqqında” 28 oktyabr 1999-cu il tarixli Qanun, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” 28 oktyabr 1999-cu il tarixli Qanun, “Dövlət sərhədi haqqında” 9 dekabr 1991-ci il tarixli Qanun, “Sərhəd qoşunları haqqında” 6 yanvar 1994-cü il tarixli Qanun, “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 10 fevral 2009-cu il Qanunu, “Lisenziyalar və icazələr haqqında” 15 mart 2016-cı il tarixli Qanun, “Təbii inhisarlar haqqında” 15 dekabr 1998-ci il tarixli Qanun və s.

Həmçinin, digər normativ-hüquqi aktlar da mülki aviasiyanın təhlükəsizliyinin və antiterror müdafiəsinin təmin edilməsində tənzimedici vasitə qismində çıxış edirlər. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı”nın və “Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları” , 23 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası” və s.

Qeyd etmək lazımdır ki, mülki aviasiyanın təhlükəsizliyinin və onun antiterror müdafiəsinin təmin edilməsi təkcə dövlətdaxili qanunvericilik aktlarının mövcudluğu ilə kifayət etmir, həm də nəzarət mexanizmlərinin fəaliyyəti və zəruriliyini şərtləndirir. Bunun bariz nümunəsi kimi Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasını göstərmək olar ki, sözügedən qurum Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 512 nömrəli Fərmanı ilə yaradılmaqla, mülki aviasiya sahəsində nəzarəti, dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı sayılır. Eyni zamanda, Dövlət Başçısının 2 fevral 2017-ci il tarixli Fərmanı ilə Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi publik hüquqi şəxsin yaradılması nəzərdə tutulmuşdur. Müfəttişliyin yaradılmasında məqsəd mülki aviasiyada uçuşların təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etməkdir. Bununla yanaşı, potensial və mümkün təhlükələrin, eləcə də mülki aviasiya əleyhinə yönəlmiş cinayətlərin qarşısının alınması və aradan qaldırılması işində öz səlahiyyətləri çərçivəsində Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi kimi qurumlar yaxından iştirak edirlər.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş



mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Правовые основы антитеррористической защищенности гражданской авиации в рамках ООН. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2014, №3 (39), s. 78-85.

2. Борьба с авиатерроризмом в рамках Организации по Безопасности и Сотрудничеству в Европе. Bakı Universitetinin xəbərləri (Sosial-siyasi elmlər seriyası), 2015, №2, s. 5-16.

3. Институционные средства борьбы с воздушным терроризмом в Европейском Союзе. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2015, №4 (44), s. 54-66.

4. Роль ИКАО в обеспечении антитеррористической защищенности гражданской авиации. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Heydər Əliyevin Azərbaycan hüquq elminin və təhsilinin inkişafında rolu” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. I Cild. Bakı, 2015, s. 196-204.

5. Участие Азербайджана в деятельности по обеспечению антитеррористической защищенности гражданской авиации. Наука і правоохорона (Украина), 2015, №3, с. 72-82.

6. Институционные основы антитеррористической защищенности гражданской авиации в рамках ООН. Nəqliyyat hüququ, 2015, №2, s. 123-137.

7. Правовые основы борьбы с воздушным терроризмом в Европейском Союзе. Право и политология, Молдова, 2016, №34, с. 25-32.

8. Сравнительный анализ законодательства Азербайджанской Республики и зарубежных стран по обеспечению антитеррористической защищенности гражданской авиации. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. I Cild. Bakı, 2016, s. 16-20.

9. Обеспечение нтитеррористической защищенности гражданской авиации в рамках СНГ. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri, 2016, №43, s. 107-119.

10. Важность Пекинской Конвенции о борьбе с незаконными актами в обеспечении международной авиационной безопасности. Матеріали VII Міжнородної науково-практичної конференції «Безпека людни в умовах глобалізації: сучасни правові парадигми». Том II. Київ, 2017, с 226-229.

## SUMMARY

Leyla Fagani Fardilon's dissertation work presented for attaining the degree of PhD in the specialization 5603.01 – 'International law; human rights' called 'International legal aspects of ensuring anti-terror protection of civil aviation' being an independent, creative and completed work, containing brand new provisions, is of paramount importance for the analysis of significant international legal peculiarities as well as key directions and problems of ensuring anti-terror protection of civil aviation, mutual relations of the Republic of Azerbaijan and international organizations, including the relationship between international legal norms and the national legislation of the Republic of Azerbaijan in this field. The dissertation work is formed on the basis of comparative analysis of thorough international treaties' experience in this particular field, on legislation of different countries including Azerbaijan, diverse points of views existing in the legal literature, and contains introduction, three chapters, conclusion and bibliography.

In the introduction, the relevance of the research topic is substantiated, the degree of its elaboration, the scientific novelty, the new scientific positions presented for protection, the goals and objectives of the research, its theoretical and practical significance are revealed.

The first chapter, which is contained two paragraphs and called 'The essence and main directions of ensuring antiterrorism protection of civil aviation', analyzes such important issues as the history and specific characteristics of struggle against aerial terrorism on the context of ensuring civil aviation safety, as well as main features of principle of providing international civil aviation security as legal basis of prevention and tackling measures of illegal acts against civil aviation.

The second chapter of the dissertation work is called 'International legal mechanisms of anti-terror protection of civil aviation' and is comprised of three paragraphs. This chapter analyzes impact of universal mechanisms' (UN, International Civil Aviation Organization) activity to ensuring anti-terror protection of civil aviation, the role of regional legal regulation in the field of anti-terror protection of civil aviation (law-making activity of regional organizations in Europe, as well as essential features of cooperation on the anti-terror protection of civil aviation in the framework of the Commonwealth of Independent States and other regional organizations), character of bilateral treaty practice of the Republic of Azerbaijan in ensuring anti-terror protection and civil aviation safety.

The third chapter of the dissertation work is called 'Implementation of international legal norms on anti-terror protection of civil aviation in domestic legislation' and is comprised of two paragraphs. This chapter explores the legislative experiences of foreign countries on anti-terror protection of civil aviation, including mutual issues between domestic legislation of the Republic of Azerbaijan and international legal norms on anti-terror protection of civil aviation.

In conclusion, the most important results and proposals related to the study were noted, including their theoretical and practical role for the international and domestic legislative legal system.





## РЕЗЮМЕ

Диссертационная работа на тему «Международно-правовые аспекты обеспечения антитеррористической защищенности гражданской авиации», представленная Лейлой Фагани гызы Фардилон на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека», является самостоятельным, творческим и завершенным исследованием, содержащим совершенно новые научные положения, имеющим очень большое значение для анализа важных международно-правовых особенностей, основных направлений и проблем обеспечения антитеррористической защищенности гражданской авиации, взаимоотношений между Азербайджанской Республикой и международными организациями в этом направлении, в том числе вопросов взаимодействия норм международного и внутригосударственного права в этой области. Диссертационная работа состоит из введения, 3-х глав, заключения и списка использованной литературы.

Во Введении диссертационной работы обоснована актуальность темы исследования, определены цели и задачи исследования, его методологические и теоретические основы, обоснована научная новизна исследования, приведены сведения о новых научных положениях, представляемых к защите и их практическом значении, об апробации результатов исследования и структуре диссертации.

Первая глава диссертации, состоящая из двух параграфов, называется «Суть и основные направления антитеррористической защищенности гражданской авиации». В этой главе проанализированы история и характерные особенности борьбы с воздушным терроризмом в контексте обеспечения безопасности гражданской авиации, международно-правовые основы принципа обеспечения безопасности гражданской авиации предотвращения незаконных действий против гражданской авиации.

Вторая глава диссертации, состоящая из трех параграфов, называется «Международно-правовые механизмы антитеррористической защищенности гражданской авиации». В этой главе проанализированы влияние действия универсальных механизмов (ООН, Международной Организации Гражданской Авиации) на обеспечение антитеррористической защищенности гражданской авиации, роль регионального правового регулирования в сфере антитеррористической защищенности гражданской авиации (нормотворческая деятельность европейских региональных организаций в этом направлении, основные особенности сотрудничества по антитеррористической защите гражданской авиации в рамках Содружества Независимых Государств и других региональных организаций), роль практики двусторонних договоров Азербайджанской Республики в обеспечении безопасности и антитеррористической защищенности гражданской авиации.

Третья глава диссертации называется «Имплементация норм международного права в сфере антитеррористической защищенности гражданской авиации во внутригосударственное законодательство» и состоит из двух параграфов, В этой главе исследованы законодательная практика иностранных государств по вопросам антитеррористической защищенности гражданской авиации, в том числе вопросы взаимодействия между внутригосударственным законодательством Азербайджанской Республики и нормами международного права в области антитеррористической защиты гражданской авиации.

В заключении отмечены связанные с исследованием важнейшие выводы и предложения, в том числе, выражено их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ЛЕЙЛА ФАГАНИ гызы ФАРДИЛОН**

# МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ АСПЕКТЫ ОБЕСПЕЧЕНИЯ АНТИТЕРРОРИСТИЧЕСКОЙ ЗАЩИЩЕННОСТИ ГРАЖДАНСКОЙ АВИАЦИИ

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2017**